# “O BİZİMLƏDİR”

## Professor Dilarə Seyidzadə ADPU-da keçirilən görüşdə Ulu Öndər Heydər Əliyevlə bağlı xatirələrini bölüşüb





Azərbaycan Dövlət Pedaqoji Universitetində “Heydər Əliyev İli” çərçivəsində Filologiya fakültəsinin təşkilatçılığı ilə tarix elmləri doktoru, professor Dilarə Seyidzadə ilə görüş keçirilib. “O bizimlədir” adlı görüşdə universitetin rəhbərliyi, fakültənin professor-müəllim heyəti, tələbələr və KİV nümayəndələri iştirak edib.

Tədbiri giriş sözü ilə açan ADPU-nun beynəlxalq əlaqələr üzrə prorektoru, Filologiya fakültəsinin dekanı, professor Mahirə Hüseynova tanınmış alim Dilarə Seyidzadənin həyat və fəaliyyətindən söhbət açıb. Dilarə Seyidzadənin elmi fəaliyyətindən danışan prorektor qeyd edib ki, alimin milli tariximizin tədqiqində, Cümhuriyyət tariximizin daha da dərindən araşdırılmasında xüsusi xidmətləri var. Dilarə xanımın ailəsi haqqında da söz açan M.Hüseynova onun məşhur Seyidzadələr ailəsindən olduğunu, atası Bağır Seyidzadənin tanınmış diplomat, jurnalist və tərcüməçi olduğunu deyib.

Dilarə Seyidzadənin dövlət qulluğunda göstərdiyi xüsusi xidmətlərdən də danışan Mahirə Hüseynova onun 1-ci dərəcəli dövlət müşaviri, “Şərəf” və “Şöhrət” ordenli olduğunu da iştirakçıların nəzərinə çatdırıb. Bildirilib ki, professor Dilarə Seyidzadə Ulu Öndər Heydər Əliyevin və Prezident İlham Əliyevin köməkçisi, Prezidentin Katibliyinin rəisi kimi uzun illər dövlətçiliyə xidmət edib.

Görüşdə çıxış edən professor Dilarə Seyidzadə dəvətə görə universitet rəhbərliyinə və kollektivə təşəkkürünü bildirib. Professor Ümummilli Liderimiz Heydər Əliyevi dərin hörmət və ehtiramla yad edərək onunla bağlı xatirələrindən danışıb. Ümummilli Liderin Azərbaycan xalqına, dövlətinə olan hədsiz sevgisinin ona bitmək bilməyən güc və enerji verdiyini xüsusi vurğulayan Dilarə Seyidzadə Heydər Əliyev dühasının böyüklüyündən söhbət açıb. Ulu Öndərin əvəzolunmaz şəxsiyyət olduğunu sözlərinə əlavə edən Dilarə Seyidzadə Heydər Əliyevin milli-mənəvi dəyərlərə, mədəniyyət və incəsənətə bağlılığını da xüsusilə qeyd edib.

Ulu Öndər Heydər Əliyevlə bağlı xatirlərini bölüşdükdən sonra Dilarə Seyidzadə iştirakçıların suallarını cavablandırıb.

Maraqlı və diskussiya şəklində keçirilən görüşün sonunda çıxış edən ADPU-nun rektoru professor Cəfər Cəfərov qonağı rəhbərlik etdiyi universitetdə görməkdən məmnun olduğunu və dəvəti qəbul etdiyinə görə Dilarə xanıma təşəkkürünü bildirib.

**Niyazi RƏHİMOV**